**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

**UOT 1**

# ŞUMER VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTLƏRİ ARASINDAKI FƏRQLİ XÜSUSİYYƏTLƏR

**Nazim HÜSEYNLİ**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 26 may 2023; çapa qəbul edilmişdir: 15 iyun 2023; online-da çap edilmişdir: 30 iyun 2023.

Received: 26th of May, 2023; accepted: 15th of June, 2023; published online: 30th of June, 2023.

**Açar sözlər:** *şumerlər, Azərbaycan, din, mədəniyyət, Mesopatamiya, Qafqaz*

## Giriş

E.ə. IV minilliyinin sonu-II minilliyinin əvvəllərində Mesopotamiyada (müasir İraqın cənubunda) özlərini "qarabaş" adlandıran insanlar tarix səhnəsinə çıxdı, elm aləmində "şumerlər" kimi tanınaraq, dünya mədəniyyətinə böyük mədəni miras bəxş etdilər. Şumer adlanan insanların özlərini "kiengi" adlandırdıqları bildirilir (4, 38). Qaynaqlara görə, bu söz akkadcadır və onun dildəki qarşılığı "şumerum" formasındadır (4, 40). İndiki müasir "şumer" sözü isə bu sözün fonetik dəyişimə məruz qalmış versiyasıdır. Onların dili Şimali Mesopotamiyada öz müasirləri olan tayfaların dilindən fərqlənirdi. Dünya şumerologiyası bu dilin semit dillərindən fərqləndiyini daha çox iltisaqi bir dil olduğunu irəli sürsə də, digər bir nəzəriyyə onların dilinin izolasiya olunmuş, yəni təcrid olunmuş bir dil olmasını da iddia edir. Eramızdan əvvəl III minilliyin sonu və ya II minilliyin əvvəllərinə qədər şumer dili canlı dil idi və bu dildə mədəniyyət nümunələri yaradılır, gil lövhələrə yazılar yazılır, təhsil verilirdi. Sonralar eramızdan əvvəl I minilliyin sonuna qədər şumer sözlərindən assuriyalılar və babillilər ibadət və öyrənmə dili kimi geniş istifadə edirdilər. Elm adamları hələ də şumer dilinin qohumluq əlaqələrini kəşf edə bilməyiblər, yəni onu başqa heç bir dillə əlaqələndirə bilməyiblər. Demək lazımdır ki, bu hesabla irəli sürülən fərziyyələrin sayına görə şumer dili digər dillər arasında inamlı liderlik edir. Şumer dilinin mənşəyini təyin etmək alimlərin birinci qayesidir. Çünki dilin mənşəyini təyin etmək millətin mənşəyinin kəşfində önəmli rol oynayacaqdır. Lakin şumer dilinin müasirləri və eyni zamanda şumer dili özü də hazırda ölü dillərdən sayıldığından onun mənşəyini təyin etmək heç də asan olmur. Onların dillərinin mənşəyi tam dəqiq öyrənilərsə, müasir dünya xalqlarının hansı ilə milli-mədəni əlaqəsinin olması aşkara çıxa bilər. *"Belə bir fərziyyə linqvistik cəhətdən eyni dərəcədə ehtimal olunan iki tarixi ssenarini təklif edir. Ya Hurri-Urartu dilinin ləhcəsində danışan tayfalar Qafqazdan Cənubi Mesopotamiyaya gələrək burada şumerlərlə qarşılıqlı əlaqəyə girmişlər. Şumer mədəniyyəti üstünlük təşkil etdi və yeni gələnlər tədricən şumer dilində danışmağa başladılar. Dil dəyişikliyi prosesi nədənsə kəsildi, şumerlər tarix səhnəsindən itdilər*". (4, 76)

Şumer dilinin başqa dillərlə paralleliyi, xüsusilə də türk dilləri ilə qohumluğu bir

[*] *fəlsəfə elmləri doktoru, professor, Bakı Avrasiya Universiteti*
*e-mail:* nazimhuseynli56@gmail.com

çox şumeroloqların tədqiqat obyekti olmuşdur.

*"Əgər şumer dilini ilkin çıxış nöqtəsi kimi götürsək, yəqin ki, uğurlu nəticə əldə edə bilmərik. Çünki şumer tarixinin başlanğıc dövrünə, yəni onların sivilizasiyasının təşəkkülü dövrünə qədər Mərkəzi Asiya, Azərbaycan, Türkiyə və digər ərazilərdə mədəniyyətlər inkişaf etməyə başlamışdı. Hətta Eneolit dövründə onların inkişafı intensiv xarakter daşıyır. Şumer sivilizasiyası ilə bu mədəniyyətlər arasında qarşılıqlı əlaqə və təsir olmuşdur. Mədəniyyətlərarası paralellik zəruri olaraq etnodünyagörüşündəki paralelliyi şərtləndirir. Şumer və türklərdə linqvistik ənənələrin ilkin çıxış nöqtəsinin müəyyənləşdirilməsi qarşıya qoyduğumuz məsələlərin həllində, həmçinin faktoloji təhlil üçün mühüm ontoloji və qneseoloji rol oynayır"*. (2, 18-19)

Qədim şumer mədəniyyəti o qədər zəngindir ki, özündən sonra gələn bütün xalqların dininə, dilinə və adət-ənənəsinə böyük təsir göstərmiş sivilizasiyaya malik nadir xalqlardan biri olmuşdur. Şumerlər haqqında ilk elmi məlumatlar 1869-cu ilə aiddir. O ildən bəri aparılan araşdırmalar bir çox gizli qalan məqamları üzə çıxarmışdır. Şumerlərə aid dil, mədəniyyət, memarlıq, sosial həyatlar, qonşu xalqlarla münasibətlər, ədəbiyyat, musiqi, inanc, mifləri və bir sözlə mədəniyyətləri haqqında geniş məlumat olsa da, yenə də qədim şumer bir sirr olaraq qalmaqdadır. Bu günə kimi bəşəriyyəti ən çox maraqlandıran sual onların milli mənsubiyyəti və dilləri olmuşdur və necə olmuşdur ki, bu qədim xalq bu qədər irəli səviyyədə inkişaf etmiş olsun. Sözsüz ki, şumerlərin bu dərəcə irəli getmiş mədəniyyətə sahib olmalarının kökündə onların mixi yazılara sahib olmaları da dayanırdı. Bir milləti irəli aparan təbii ki, təhsildir. Dünya sivilizasiyasına hökm etmələrinin səbəbi yüksək intellektli bir millət olmaları idi. Şumerlərin mixi yazının ixtirası təxminən eramızdan əvvəl 3400-cü ilə aiddir. Ən mürəkkəb formada o, qədim mirzələrin nəm gil lövhələrə qamış qələmlə söz və ya heca yazmaq üçün istifadə etdiyi bir neçə yüz simvoldan ibarət idi. Sonra lövhələr bərkimək üçün bişirilir və ya günəşdə buraxılırdı. Şumerlər, deyəsən, mixi yazını ilk dəfə maliyyə və ticarət qeydlərini aparmaq üçün daha doğrusu adi məqsədlər üçün inkişaf etdirmişlər, lakin zaman keçdikcə o, şeir və tarixdən tutmuş qanun məcəllələrinə və ədəbiyyata qədər hər şey üçün istifadə olunan tam hüquqlu yazı sisteminə çevrilmişdir. Qrafik işarələr bir çox dilə uyğunlaşdırıla bildiyindən, daha sonra bir neçə minilliklər ərzində ondan çox müxtəlif mədəniyyətlər tərəfindən istifadə edilmişdir. Əslində, arxeoloqlar Yaxın Şərq astronomik mətnlərinin hələ eramızın I əsrində mixi yazı ilə yazıldığına dair sübutlar tapdılar (9).

Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Azərbaycan qədim zamanlardan dünya sivilizasiyasının mərkəzi olan coğrafi mövqeyə sahibdir. Dinlərin və mədəniyyətlər qovuşuğu olan bu torpaqlarda dövlətçilik ənənələri e.ə. III minillikdən başlamış və eramızın III əsrinə qədər bu ərazidə ən qədim tayflar yaşamış böyük bir mədəniyyətin yaranmasına səbəb olmuşlar. O dövrdə Qafqaz ərazisində Turukki, Kuti, Aratta, Midya, Manna, Atropatena və Albaniya dövlətləri və dövlət qurumları bir-birini əvəz etmişdir. Azərbaycan mədəniyyəti qədim köklərə malikdir. Azərbaycan mədəniyyəti İslam, Qafqaz mədəniyyətinin və ən başlıcası Türk mədəniyyətinin böyük bir parçasıdır. Bu mədəniyyətin ilkin başlanğıcı Qobustan qaya təsvirlərindən başlayır.

Mədəniyyətin ən birinci göstəricisi yazı mədəniyyətidir. Şumerdə olduğu kimi, Azərbaycan ərazisində də ilkin yazı nümunələrinə rast gəlinir. Arxeoloji qazıntılar göstərir ki, hər iki ərazidə əlifba sistemi olmuşdur. Belə ki, şumerlər mixi yazı sistemini kəşf etmiş və bunu inkişaf etdirmiş bir xalq idilər. Məşhur şumeroloq alim M.İ.Çığ qeyd edir ki, qədim şumerlər yazıları ilk dəfə daşlar üzərində yazırdılar. Daha sonar Diclə və Fərat çaylarının əmələ gətirdiyi gillərdən istifadə etməyə başladılar. Beləliklə, çox istifadə olunan mixi yazılar babillilər, akkadlar, hurilər, hetlər, assuriyalılar, uqaritlər və farslar tərəfindən istifadə olunmuşdu. Sonradan Misir heroqliflərinin kəşfində şumer mixi yazıları əsas rol oynamışdır (3, 6). Azərbaycanda ilk işarələrə qədim qayalarda rast

gəlinir. Qafqazda alban əlifbası və qədim göytürk əlifbasından istifadə edilmişdir. Mingəçevir yaxınlığında aparılan qazıntılar zamanı indiyədək məlum olan Qafqaz albanlarının dilində ən uzun kitabə tapılmışdır. 1948-ci ildə dörd üzü ətrafında kubşəkilli postamentin yuxarı hissəsinin təxminən ölçüsündə. Yazılar hazırda Milli Azərbaycan Tarixi Muzeyində qorunur. Köhnə şəkillər göstərir ki, qazıntılar zamanı kitabə daha tam olmuşdur (9). Lakin o zaman da üçüncü üzün mətninin çoxu yox idi. Yazının əsas cəhətləri buna baxmayaraq inamla müəyyən edilmişdir. Alban əlifbası 49 işarədən ibarət olmuşdur. Azərbaycanda eyni zamanda qədim göytürk abidələrinə aid işarələr də tapılmışdır. Bunu Y.Əliyev bu cür izah edir: *"Eradan əvvəl IV və yeni eranın VII əsrlərində antik mənbələrə görə Qafqaz Albaniyasında–indiki Azərbaycanda yaradılmış alban epiqrafik abidələrinin yazıya alındığı qrafik işarələrin müəyyən hissəsi qədim fonoqrafik yazı sistemlərindən birinin – qədim türk əlifbasının işarələri ilə üst-üstə düşür"* (1, 3).

Bununla yanaşı, Naxçıvanın Şərur rayonunda yerləşən Qaratəpə dağında da mixi yazı nümunələrinə rast gəlinmişdir. Bu təbii haldır. Ona görə ki, şumerlərin yaşadıqları ərazilər Azərbaycanın indiki cənub-qərb hissəsinə təsadüf edir. Buna görə də mədəniyyətə və əraziyə sərhəd qoymaq doğru olmazdı. "*Oğlanqaladan tapılan keramika və digər nümunələr Oğlanqalanın Urartu ilə, həmçinin İran və Gürcüstanla da ticarət əlaqələri saxladığını təsdiq edir. Oğlanqala yaşayış yerindən e.ə. VIII əsrə aid edilən üzərində "şəhər qurdum" mənasına gələn mixi yazı parçalarının olduğu müəyyən edilmiş iki saxsı qab qırığı da əlavə olaraq tapılmışdır. Bu yazı nümunəsinin Urartu və assuriyalılara deyil, yerli tayfalardan birinə, daha çox isə mannalılara aidliyi, yəni Azərbaycan ərazisində yaşamış tayfalara aid olması da təsdiqlənmişdir. Bu Oğlanqala abidəsinin yerli tayfalara məxsusluğunu təsdiq edir"* (4, 20)

Arxeoloji qazıntılardan aydın olur ki, Qafqazda daş dövrünə aid olan bir çox maddi mədəniyyət nümunləri tapılmışdır. Bunlar içərisində Azıx mağarasında tapılmış insan alt çənəsi qədim sivilizasiyadan xəbər verir. Azıxantropun vətəni olan Azərbaycanda bu ilkin izlər idi. Daha sonralar dövlətlər bir-birini əvəz etdikcə hər bir dövlətin özünəməxsus inamı və adət-ənənəsi bir sözlə, özünəməxsus mədəniyyəti var idi. Şumerə dövlətinə yaxın olan Qafqaz sözsüz ki, şumerlərdən təsirlənmişdi. Buna görə də qədim Azərbaycan ərazisində yaranan mədəniyyətlə şumer mədəniyyəti arasında oxşarlılar var idi. Bununla yanaşı, istər dini dünyagörüşü baxımından, istərsə də digər səbəblərdən asılı olaraq mədəni fərqlər də çox idi.

Qafqaz qədimdən müxtəlif tayfaların məkanı olmuşdur. Sözsüz ki, aparıcı və dominant rolu türklər oynamışdır. Qafqaz Albaniyasında 26 dildə danışan tayfalar yaşayırdılar. Hər bir tayfanın təbii ki, özünəməxsus mədəniyyəti mövcud idi. Bu mədəniyyətlər birləşib vahid Azərbaycan mədəniyyəti yaratmışdır. Bu ərazilərdə bir çox mədəniyyətlər formalaşmışdır, Şomutəpə mədəniyyəti, Lələtəpə mədəniyyəti, Kür-Araz mədəniyyəti mövcud olmuşdur. Albanlar xristian olduqları üçün təbii ki, mədəniyyət Azərbaycanda qurulmuş sonrakı dövrlərin dövlətləri ilə fərqlənirdi. Bu daha çox memarlıqda özünü göstərirdi. Çünki Albaniyanın süqutundan sonra buradakı tayfaların böyük hissəsi islam dinini qəbul etdi. Qədim Azərbaycan dövlətlərindən biri olan Albaniya əhalisinin dini xristianlıq olduğu üçün, bu dinə aid mədəniyyət formalaşmışdı. Bu da çoxtanrılı dini inanc sistemina sahib olan şumerlərdən fəərqləndirən ən birinci cəhət idi.

Qədim Albaniyada və Atropatenada bir çox mədəni məşğuliyyət inkişaf etmişdi. Dulusçuluq, memarlıq, zərgərlik, toxuculuq, metal istehsalı, şüşə istehsalı və s. mədəniyyət nümunələri idi.

Toxuculuğun mərkəzi qədim Albaniyada Bərdə və Dərbənd idi. Arxeoloji qazıntılar zamanı Mingəçevirdən, Beyləqandan toxuculuq dəzgahları, ip əyirən alətlər tapılmışdır. Yaqut Həməvi və əl-İstəxri kimi ərəb səyyahları də Albaniyda yun parça, ipək, kətan, istehsal edildiyini yazırdılar. Tarixi qaynaqlardan baramaqurdlarından, toxuculuqda

boyaq maddələrinin istifadə edilməsi bəllidir.

Qədim Albaniyada ilk əvvəl, şumerlərdə olduğu kimi, dulusçuluq inkişaf etsə də, sonradan metalın və şüşənin emalı bu sahənin bir az zəifləməyinə gətirib çıxarmışdır. *"Kalankatlı Albaniyada metallurgiya barədə, dəmir, mis, qızıl, gümüş istehsal edən, onun əridilməsi, emalı ilə məşğul olan sənətkarlar barədə məlumat verib. Yazılı mənbələr və Gədəbəy, Şirvan, Qarabağ, Şəki və s. rayonlardan aşkar edilmiş arxeoloji materiallar təsdiq edir ki, Albaniya qədim metallurgiya mərkəzlərindən biri olmuşdur".* (4, 223).

Azərbaycan çoxkonfensiyalı ölkə olduğundan müxtəlif dinlərin məkanı olmuşdur. Qədim Albaniya haqqında Strabon məlumat vermişdir. O qeyd edir ki, qədim albanlar xristian olmazdan əvvəl ilkin inanc kimi Ay tanrısı, Zevs və Günəşə inanırdılar. Bu qədim şumer inacı ilə üst-üstə düşürdü. Şumerdən fərqli olaraq, Albaniyada ibtidai inamlar da mövcud idi. Lakin xristian dininə aid icmalar yaradılmışdı. Qafqaz Albaniyasında xristian dini bizim eranın 54-57-ci illərində Müqəddəs Yeliseyin sayəsində yayılmağ başladı ancaq rəsmi olaraq IV əsrdə qəbul edilmişdi (yapmol). İlk xristian məbədi isə Şəki şəhərindəki Kiş məbədi idi. *"Albaniyada 300-ə yaxın məbəd və kilsə tikilmişdir"* (7)

Qədim mədəniyyətə sahib Azərbaycan türklərində islam dini ilə və coğrafi yaxınlıq ilə bağlı olaraq fərqli və oxşar xüsusiyyətlər çoxdur. Təbiət kultlarında bənzərliklər. Ay və Günəş kultu prototürk dövründən bəri öz təsirini davam etdirir. İslamdan sonrakı dövrlərə də və hətta müasir azərbaycanlılarda belə bir ritual mövcuddur. Belə ki, gecə ayı görəndə aya salam verilir və "Ay, səni xoş gördüm, ay, səni xoş gördüm" sözləri təkrarlanır. Yenə Türkiyə türkcəsindəki "Ay Dədə" ifadəsi də eyni anlayışın davamıdır. Əslində qədim şumerdə bir çox dini rəvayətlər yəhudilik, xristianlıq və islam dinində olduğu kimidir.

Mesopotamiya ilə Azərbaycanın ilə sonrakı əlaqələri Ubeyd mədəniyyəti əsasında özünü göstərir. Ubeyddə tapılan qab nümunələri Cənubi Azərbaycanda Urmiya gölünün yaxınlığında, eyni zamanda Qafqazda tapılmışdır. Uzun müddət xalqlar arasındakı coğrafi yaxınlıq və təmas nəticəsində Azərbaycan Ubeyd əhalisi arasında oxşarlıqlara gətirib çıxarmışdı.

Tarixçilər bunu nəzərə almalıdır ki, Azıx mağarasının bəşəriyyətin yaranmasında daha qədimdir və digər yandan, şumerlərin Mesopatamiyaya Azərbaycan ərazilərindən getdiyi fikrini düşünmək daha olardı. Çünki hər iki variantda da bu bənzərliklər etnik baxımdan yaxın və ya uzaq qohumluqla bağlı olmasa da, göz önündədir. Qəbirlərdən aşkar olunan maddi mədəniyyət nümunələri də sübut edir ki, bu iki coğrafi ərazidə yaşayan xalqlar bir-birlərindən çox təsirlənmişlər. Bunun isə iki səbəbi ola bilərdi. Bu ya genetik qohumluq ya da yaxın təmaslarla əlaqədar idi.

III minilliyin sonundan II minilliyin ikinci yarısınadək davam etmiş orta tunc dövrü Azərbaycan və Şumer əlaqələri daha da çoxalmışdı. Tədqiqatçılar belə qənaətə gəlirlər ki, həmin tarixi dövrdə Azərbaycanın cənub əhalisi Şumer-Akkad mənbələri dairəsinə düşür. Bu mənbələr isə bizə məlumat verir ki, e.ə. III minilliyin sonlarında Azərbaycanda, çox sayda tayfalar yaşamışlar. Kutilər, lullubilər, hurrilər haqqında ilk məlumata bu mənbələrdə rast gəlinir. Akkadların Mesopatamiyanı işğal etməsindən sonra bu münasibətlərdə dəyişiklik əmələ gəlmişdi. Zaqros dağlarında və onun şərqində yaşayan kaslar və lullularla və başqa xalqlardan danışılarkən onların dağlılar və yerlilər deyə ikiyə ayrıldığı bildirilir. Babillilər Şumer ənənələrini davam etdirərək mədəni təsir göstərməyə çalışırdılar. Ubeyd boyalı qab nümunələri Güney Azərbaycanda Urmiya gölünün hövzəsində, həm də Qafqaz yaşayış yerlərindən tapılıb. Uzun müddətli əlaqələr və təmas nəticəsində Azərbaycan Ubeyd təbəqələri üçün tanınan bir ölkə olub və yəqin ki, onların diqqətini cəlb edib. Araşdırıcılar bu qənaətdədirlər ki, Azıx mağarasının bəşərin təşəkkülündə rolunu və digər tərəfdən, şumerlərin İkiçayarasına Azərbaycan ərazilərindən getdiyini

nəzərə aldıqda əksinə düşünmək daha düz olar və hər iki halda əlaqələr göz önündədir, hər iki ərazi əhalisinin bir kökdən olması inamı daha güclüdür. Bu əlaqələr yaşayış düşərgələrindən, qəbirlərdən tapılan maddi materiallar sübuta yetirilir.

Mesopotamiyadakı Şumer sivilizasiyasının mənşəyi bu gün də müzakirə olunur, lakin arxeoloji sübutlar onların eramızdan əvvəl dördüncü minilliyə qədər təxminən onlarla şəhər dövləti qurduğunu göstərir. Bunlar, adətən, ziqquratın üstünlük təşkil etdiyi divarlı bir metropoldan – Şumer dini ilə əlaqəli pilləli, piramidaya bənzər məbədlərdən ibarət idi. Bağlanmış bataqlıq qamışlarından və ya çiy kərpicdən evlər tikilir, Dəclə və Fərat çaylarının lillə dolu sularından əkinçilik üçün istifadə etmək üçün mürəkkəb suvarma kanalları qazılırdı. Əsas Şumer şəhər dövlətlərinə Eridu, Ur, Nippur, Laqaş və Kiş daxil idi, lakin ən qədim və ən geniş yayılmış şəhərlərdən biri altı mil müdafiə divarları və 40.000 ilə 80.000 arasında əhalisi olan inkişaf edən ticarət mərkəzi olan Uruk idi. Təxminən eramızdan əvvəl 2800-cü ildə zirvəsində, çox güman ki, dünyanın ən böyük şəhəri idi.

Qədim Mesopotamiya haqqında ən böyük məlumat mənbələrindən biri Şumerin qədim hökmdarlarının əksəriyyətinin adlarını, eləcə də onların hökmranlıqlarının uzunluğunu sənədləşdirən "Kral siyahısı" adlanan gil lövhədir. Siyahı tarixi faktın və mifin qəribə qarışığıdır – bir erkən padşahın 43,200 il yaşadığı deyilir - lakin bu siyahıya Şumerin tək qadın monarxı, guya taxta çıxan "qadın meyxanaçı" Kubaba timsalında da daxildir. Kiş şəhər dövlətində təxminən e.ə. 2500-cü ildə Kubabanın hakimiyyəti və onun hakimiyyətə necə gəldiyi haqqında çox az şey məlumdur, lakin siyahıda ona "Kişin əsaslarını möhkəmlətmək" və 100 il davam edən bir sülalə qurmaqla borcludur. Ortaq dil və mədəni ənənələrə malik olsalar da, Şumer şəhər dövlətləri bir neçə fərqli sülalə və padşahlıq ilə nəticələnən davamlı müharibələrlə məşğul olurdular. Tarixə məlum olan bu münaqişələrdən birincisi e.ə. 2450-ci ildə sərhəd mübahisəsində rəqib Umma şəhər dövlətini məğlub edən Laqaş kralı Eannatumla bağlıdır. Qələbəsini qeyd etmək üçün Eannatum, ölmüş düşmənlərinin əti ilə ziyafət edən quşları təsvir edən dəhşətli əhəng daşından bir abidə olan "Qarğalar steli" adlanan abidəni tikdi. Eannatum altında Laqaş bütün Şumeri fəth etməyə davam etdi, lakin bu, tarixi ərzində Mesopotamiya üzərində hökmranlıq edən bir neçə şəhər dövlətindən yalnız biri idi (11).

Şumerlər yazı, qanun məcəllələri və ədəbiyyat icad etməklə yanaşı, tarixin bəzi orijinal pivə istehsalçıları kimi də xatırlanırlar. Arxeoloqlar eramızdan əvvəl dördüncü minilliyə aid Mesopotamiyada pivə istehsalına dair dəlillər tapdılar. İstifadə etdikləri dəmləmə üsulları hələ də sirr olaraq qalır, lakin onların üstünlük verdiyi arpa əsaslı qarışıq o qədər qatı idi ki, onu xüsusi bir filtrasiya samanı ilə içmək lazım idi. Şumerlər öz pivələrini qida ilə zəngin tərkib hissəsinə görə qiymətləndirirdilər (11). Hətta şumerlərin "Ninkasi" adlı pivə bişirmə ilahəsi var idi ki, o, məşhur bir himndə "yerə qoyulmuş səməni sulayan" kimi qeyd olunur.

Mesopatamiya xalqlarında memarlıq inkişaf etmişdi. Memarlıq nümunələri qalalar, məbədlər, yaşayış evlərindən ibarət idi. Daha çox əzəmətli məbədlərin tikintisinə və sarayların tikintisinə, memarlıq üslubuna diqqət yetirilirdi. Qədim şumer heykəltaraşlığında yonulan heykəllər ümumiyyətlə alçaqboylu, irigözlü, donuq yonulurdu. Daha çox hökmdar və ailəsinə mənsub şəxslərin heykəlləri hazırlanırdı.

Assuriyanın ətraf ölkələrə işğalçı siyasətinə əks olaraq mübarizədə Azərbaycanda yaşayan tayfaların vahid dövlət halında birləşməsi zərurətini meydana gətirmişdi. E.ə. IX-VIII əsrlərdə Manna artıq güclü bir dövlət kimi ön planda idi. Mannanın ərazisi şimalda Araz çayına qədər olan ərazilərlə, cənubda və cənub-şərqdə isə Parfiya və Midiya ilə sərhəd idi. *"E.ə. VIII əsrin sonunda Mannadan cənub-şərqdə Midiya dövləti yaranmış, e.ə. VII əsrin əvvəllərindən başlayaraq, Ön Asiya ərazilərinə yayılan kimmer, skif-sak tayfaları Azərbaycanda-Urmiyadan şimalda və qərbdə Skif padşahlığını yaratmışlar"* (4, 6).

Vətənləri ağac, daş və minerallardan məhrum olduğundan, şumerlər həm quruda, həm də dənizdə tarixin ən erkən ticarət şəbəkələrindən birini yaratmağa məcbur oldular. Onların ən mühüm kommersiya tərəfdaşı mis ticarətində inhisarda olan Dilmun adası (indiki Bəhreyn) ola bilərdi, lakin onların tacirləri də sidr ağacı yığmaq üçün Anadolu və Livana, Oman və digər ölkələrə, qızıl və qiymətli daşlar üçün Hind Vadisinə səfərlər etdilər. Şumerlər, xüsusilə, "lapis lazulini" (lacivərd) adlanan, incəsənət və zərgərlikdə istifadə edilən mavi rəngli qiymətli daşı çox sevirdilər və onu əldə etmək üçün Əfqanıstana qədər gedib çıxdıqlarına dair sübutlar var. Tarixçilər həmçinin "Maqan" və "Meluhha" kimi tanınan iki qədim ticarət ölkəsi deyərkən şumerlərin Misir və Efiopiyayanı (Həbəşistan) nəzərdə tutduğunu irəli sürürlər.

Bir saatın 60 dəqiqə, bir dəqiqənin 60 saniya olması kəşfi də qədim şumerlərə məxsusdur. Belə ki, riyaziyyata aid fikirləri və kəşfləri onları bütün müasirləri olan xalqlardan fərqləndirirdi. Müasir riyaziyyatda on sayına əsaslanan 10-luq sistem olduğu kimi, şumerlər, əsasən, 60-lıq qruplara əsaslanan üsuldan istifadə edirdilər. Bu asanlıqla bölünə bilən say sistemi daha sonra qədim babillilər tərəfindən qəbul edilmiş və ondan astronomik hesablamalar üçün istifadə edilmişdir. Ayların və ilin uzunluğu üzrə hesablamalar da şumerlərə aiddir.

Qədim Azərbaycan ərazisində, xüsusilə, Albaniyada numizmatik materiallara rast gəlinir. e.ə. III-IV əsrlərdə pul dövriyyəsinin mövcudluğunu tarixi qaynaqlar və arxeoloji qazıntılar sübuta yetirir. *"Strabon Albaniyada sikkələrdən az istifadə olunduğunu, albanların 100-dən yuxarı saya bilmədiyini, ticarətin əsasən əmtəə mübadiləsi vasitəsilə həyata keçirildiyini yazsa da, Azərbaycan ərazisindən tapılmış bir çox sikkələr Albaniyada pul mübadiləsinin geniş yayıldığını göstərir"* (4, 236) Tarixi qaynaqlardan və arxeoloji qazıntılardan məlum olur ki, qədim şumerlər də pullardan istifadə etmişlər.

E.ə. II minilliyin əvvəllərində Mesopotamiya amoritlər və babillilər tərəfindən işğal edildikdən sonra şumerlər tədricən öz mədəni kimliklərini itirdilər və siyasi qüvvə kimi mövcud olmağı dayandırdılar. Onların tarixi, dili və texnologiyası ilə bağlı bütün biliklər, hətta adları belə, sonda unuduldu. Onların sirləri XIX əsrə qədər İraq səhralarında basdırılmış olaraq qaldı, fransız və ingilis arxeoloqları nəhayət, qədim assuriyalıların sübutlarını axtararkən Şumer artefaktlarına rast gəldilər. Henri Ravlinson, Edvard Hinks, Julius Oppert və Paul Haupt kimi alimlər sonralar şumer dilinin və mixi yazının deşifrə edilməsində aparıcı rolu ələ keçirərək, tarixçilərə erkən Mesopotamiyanın çoxdan itirilmiş tarixi və ədəbiyyatı haqqında ilk baxışlarını təqdim etdilər. O vaxtdan bəri arxeoloqlar Şumer sənətinin, dulusçuluğun və heykəltəraşlığın çoxsaylı əsərlərini, eləcə də böyük əksəriyyəti hələ tərcümə olunmamış 500.000-ə yaxın gil lövhə tapılmışdır (11). Bu lövhələrin oxunması və araşdırılmasının dünya şumerologiya elminə əsaslı təkan verəcəyi şübhəsizdir.

**Nəticə**

İstər yazılı mənbələr, istərsə də arxeoloji qazıntılar göstərir ki, III-IV əsrlərdə Albaniyada sənətkarlıq, memarlıq, şəhər mədəniyyəti və s. mədəniyyət sahələri yetəri qədər yüksək səviyyədə inkişaf etmişdir. Şumerlər ilk yazıların, ilk məktəblərin, ilk memarlığın, ilk sənətkarlığın yaradıcısı idilər. Sözsüz ki, onların müasirləri və onlardan sonra gələn bütün xalqlar onlardan çox şey öyrənmişdilər. Şumerlərin dünyagörüşləri və inancları ilə qədim türklərin kosmoqonik düşüncələrində və inanclarına çox sayda oxşarlıq olduğu görülməkdədir. Ancaq bununla yanaşı, istər dini dünyagörüşü baxımından, istərsə də digər səbəblərə bağlı olaraq, mədəni fərqlərin çoxluq təşkil etdiyi aşkarlanmışdır.

## ƏDƏBİYYAT


1. Əliyev Y. Azərbaycanın qədim türk runik yazılı abidələri. Bakı: ADPU, 1993, 120 s.
2. Hüseynli N. Türk Dillərinin Geneolojiyası, Bakı: Nağıl Evi, 2012, s.18-
3. Muazzez İ.Ç. Kuran, İncil ve Tevratın Sumerdeki Kökeni, Kaynak Yayınları, 9 Basım, İstanbul, 110 s. (Muazzez-Ilmiye-Cig-Kuran-Incil-ve-Tevratin-Sumerdeki-Kokeni.pdf)
4. Paşayeva M. Azərbaycanın qədim dövlətləri, Bakı: İqtisad Universitetinin nəşriyyatı. 2018, s. 288
5. Страбон. География, кн. XVI, гл. 4, 777 с.
6. Yusifov Y. Qədim Şərq tarixi, Bakı: Şərq-Qərb, 2007, 536 s.
7. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_iyun2009/83866.htm
8. https://web.archive.org/web/20210415032734/https://scientificrussia.ru/articles/shumery-imeli-svjazi-na-kavkaze
9. https://www.academia.edu/32920468/The_Albanian_Inscriptions_Revisited
10. https://www.google.com/search?q=google+translate&oq=&aqs=chrome.0.35i39i362l8.829581463j0j15&sourceid=chrome&ie=UTF-8
11. https://www.history.com/news/9-things-you-may-not-know-about-the-ancient-sumerians


***Резюме***

***Назим Гусейнли***


***Различные характеристики между Шумерской и Азербайджанской культурами***

Азербайджан, один из древнейших культурных центров мира, имеет географическое положение, которое с древних времен было центром мировой цивилизации. Традиции государственности на этих землях, являющихся стыком религий и культур, восходят к древнейшим временам. Начиная с 3-го тысячелетия и заканчивая 3-м веком до н.э., на этой территории жили древнейшие племена, что привело к созданию большой и красочной единой культуры. Кавказ, близкий шумерскому государству, несомненно, находился под влиянием шумеров. Поэтому между культурой, возникшей на территории древнего Азербайджана, и шумерской культурой есть сходство. В то же время было также много культурных различий, будь то с точки зрения религиозных взглядов или по другим причинам. Поскольку албанцы христиане, конечно, культура отличалась от предшествующих и более поздних государств, созданных в Азербайджане, и от культуры древнего шумерского государства. Первое отличие было замечено в знаках алфавита. Таким образом, алфавиты, найденные на территории Древнего Азербайджана, отличались от шумерских. Алфавитами, использовавшимися на Кавказе, были древний албанский алфавит и гайтюркский алфавит. В древнем Шумере на более высоком уровне развивались математика, скульптура, литература, архитектура. Кроме того, на Кавказе были обнаружены и образцы клинописи. Древние шумеры были политеистами. У каждого существа в природе был свой бог. Обычно они представляли собой обнесенный стеной мегаполис, в котором преобладали зиккураты – ступенчатые пирамидоподобные храмы, связанные с шумерской религией. В древней Албании в III-IV веках ремесла, архитектура, городская культура и др. культурные поля развиты на достаточно высоком уровне


**Ключевые слова:** *древние, шумеры, Азербайджан, религия, культура, Месопотамия, Кавказ*

***Summary***

***Nazım Huseynli***


***Different Characteristics between Sumerian and Azerbaijan Cultures***

Azerbaijan, one of the oldest cultural centers in the world, has a geographical position that has been the center of world civilization since ancient times. The traditions of statehood in these lands, which are a junction of religions and cultures, date back to AD. Starting from the 3rd millennium and ending in

the 3rd century AD, the oldest tribes lived in this area, leading to the creation of a large and colorful unified culture. The Caucasus, which is close to the Sumerian state, was undoubtedly influenced by the Sumerians. Therefore, there are similarities between the culture that arose in the territory of ancient Azerbaijan and the Sumerian culture. At the same time, there were also many cultural differences, whether in terms of religious outlook or other reasons. As Albanians are Christians, of course, the culture differed from the previous and later states established in Azerbaijan and the culture of the ancient Sumerian state. The first difference was seen in the signs of the alphabet. Thus, the alphabets found in the territory of Ancient Azerbaijan were different from those of Sumer. The alphabets used in the Caucasus were the ancient Albanian alphabet and the Gokturk alphabet. In ancient Sumer, mathematics, sculpture, literature, architecture developed at a higher level. In addition, examples of cuneiform writing were also found in the Caucasus. The ancient Sumerians were polytheists. Every creature in nature had its own god. These usually consisted of a walled metropolis dominated by the ziggurat-stepped, pyramid-like temples associated with Sumerian religion. In ancient Albania, in III-IV centuries, crafts, architecture, urban culture, etc. cultural fields have developed at a sufficiently high level.

**Key words:** *ancient, Sumerians, Azerbaijan, religion, culture, Mesopotamia, Caucasus*



***Şəkil 1.*** *Alban əlifbası ilə yazılmış Şamdan*



***Şəkil 2.*** *Albaniyada istifadə olunmuş tetradraxma*



***Şəkil 3**. Albaniya dövlətinə mis maral fiquru*



***Şəkil 4**. Qədim Şumerə aid mixi yazı*

Redaksiya heyətinin üzvü fil.e.d., dos.Cəlil Fərəh Cabbar qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.